# Hilas və Filonus arasında üç dialoq

written by CorcBerkli

*Corc Berkli (1685-1753) məşhur britaniyalı filosofdur. Onun Hilas və Filonus arasında üç dialoq (Three Dialogues between Hylas and Philonous) əsəri qabaqcıl universitetlərin bir çoxunda fəlsəfə ixtisası üzrə təhsil alan ilk kurs tələbələrinə oxunması tövsiyə olunan əsərlərdən biridir. Əsər dünyanın onlarca müxtəlif dillərinə tərcümə edilmişdir.*

***Üçüncü dialoqun birinci hissəsi (<u>mətnin sonunda dialoqun əvvəlki hissələrinə və Ön sözə keçid yerləşdirilmişdir)</u>***

**Filonus**: Söyləyin mənə, Hilas, dünənki düşünmənin nəticələri nədir? O, ayrıldığımız zaman bölüşdüyünüz fikirlərinizi təsdiq etdi, yoxsa o vaxtdan bəri dəyişikliyə səbəb tapmısınız?

**Hilas**: Doğrusu, o fikirdəyəm ki, bizim bütün fikirlərimiz eyni dərəcədə əbəs və qeyri-dəqiqdir. Bu gün qəbul etdiyimizi sabah qınağa çəkirik. Biz bilik üçün hay-küy qaldırır, ömrümüzü onun axtarışına sərf edirik, ancaq təəssüf ki, heç vaxt nəyisə bilmirik; həmçinin, düşünmürəm ki, bu həyatda bizim nəyisə bilmək imkanımız var. Bacarıqlarımız çox məhdud və çox azdır. Əlbəttə, təbiət bizi dərin düşünmək üçün yaratmayıb.

**Filonus**: Necə? Deyirsiniz ki, heç nəyi bilə bilmərik, Hilas?

**Hilas**: Dünyada gerçək təbiətini, yaxud özlüyündə nə olduğunu bilə biləcəyimiz bir dənə də olsun şey yoxdur.

**Filonus**: Mənə söyləmək istəyirsiniz ki, mən odun və ya suyun nə olduğunu gerçək olaraq bilmirəm?

**Hilas**: Əslində siz bilə bilərsiniz ki, od isti, su isə axıcı görünür; ancaq bu, öz zehninizdə od və suyun hiss orqanlarınıza təsirindən yaranan duyğuları bilməkdən ötə bir şey deyil. Onların daxili tərkibi, onların həqiqi və gerçək

təbiəti sizə tamamilə qaranlıqdır.

**Filonus**: Üzərində dayandığımın gerçək bir daş, qarşımda gördüyümün gerçək bir ağac olduğunu bilmirəm?

**Hilas**: Bilmək? Xeyr, sizin və ya istənilən canlı insanın bunu bilə bilməsi qeyri-mümkündür. Bildiyiniz yalnız odur ki, sizin öz zehninizdə belə bir məlum ideya və ya görüntü var. Bəs, bu, gerçək ağaca və ya daşa münasibətdə nədir? Sizə deyirəm ki, qavradığınız rəng, fiqur və bərklik o şeylərin gerçək təbiətləri, yaxud ən azı onların bənzəri deyil. Eyni şeyi bütün digər gerçək şeylər və ya dünyanı təşkil edən cismani substansiyalar haqqında da demək olar. Onların özlərində bizim qavradığımız hissi keyfiyyətlərə bənzər heç nə yoxdur. Bu səbəbdən, biz onların özlüyündə təbiəti haqqında nəyisə təsdiqləməyə və ya bildiyimizə iddia etməməliyik.

**Filonus**: Ancaq, Hilas, əlbəttə, mən qızılı, məsələn, dəmirdən fərqləndirə bilirəm. Bəs, onlar haqqında həqiqəti bilməsəydim, bu, necə mümkün ola bilərdi?

**Hilas**: İnanın mənə, Filonus, siz yalnız öz ideyalarınız arasında fərqləndirmə apara bilərsiniz. Bu sarılıq, bu çəki və digər hissi keyfiyyətlər – düşünürsünüz ki, bunlar gerçəkdən qızıldadır? Onlar yalnız bizim hisslərimizə münasibətdə mövcuddur və təbiətdə mütləq gerçəkliyə malik deyillər. Və zehninizdəki təzahürlər vasitəsilə gerçək şeylərin növlərini fərqləndirməyi iddia etməkdə, yəqin ki, paltarları eyni rəng olmadığından iki insanın fərqli növə aid olduğunu nəticə çıxaran birisi qədər müdrik davrana bilərsiniz.

**Filonus**: Görünür, onda biz şeylərin görüntülərini bütünlüklə kənara qoymalıyıq, onlar da aldadıcıdır. Yediyim ət və geyindiyim paltarda gördüyüm və hiss etdiyimə bənzər heç nə yoxdur.

**Hilas**: Elədir.

**Filonus**: Bəs, bütün dünyanın beləcə aldanması, hisslərinə

inanacaq qədər axmaq olması qəribə deyil? Bundan əlavə, bilmirəm necə olur, ancaq insanlar sanki ətrafındakı şeyləri gerçək olaraq bilirlərmiş kimi rahatca və asanlıqla yeyirlər, içirlər, yatırlar və bütün gündəlik işlərini görürlər.

**Hilas**: Elədir, ancaq bilirsiniz ki, gündəlik iş mücərrəd biliyin incəliyini tələb etmir. Bu səbəbdən, kütlə səhvlərini saxlayır və hər bir halda gündəlik işlərlə əlləşməklə qane olur. Ancaq filosoflar şeyləri daha yaxşı bilirlər.

**Filonus**: Onu nəzərdə tutursunuz ki, onlar bilirlər ki, *heç nə bilmirlər.*

**Hilas**: Bu, insan idrakının zirvəsi və kamilliyidir.

**Filonus**: Bəs, bütün bunları ciddi deyirsiniz, Hilas, həqiqətən əminsiniz ki, dünyada gerçək olan heç nəyi bilmirsiniz? Təsəvvür edin ki, yazmağa hazırlaşırsınız. Başqaları kimi qələm, mürəkkəb və kağız tələb etməzdiniz? Və tələb etdiyiniz şeyi bilmirsiniz?

**Hilas**: Sizə nə qədər deməliyəm ki, dünyadakı heç bir şeyin gerçək təbiətini bilmirəm? Əlbəttə, lazım gəldikdə qələm, mürəkkəb və kağızdan istifadə edə bilərəm. Ancaq özlüyündə onların gerçək təbiəti nədir – qəti şəkildə bildirirəm ki, bunu bilmirəm. Və bu dediklərim digər cismani şeylər barədə də doğrudur. Bundan əlavə, biz təkcə şeylərin həqiqi və gerçək təbiəti barədə deyil, hətta onların mövcudluğu barədə də cahilik. İnkar edilə bilməz ki, müəyyən belə təzahürləri və ya ideyaları qavrayırıq; ancaq buradan belə nəticəyə gəlmək olmaz ki, cisimlər həqiqətən mövcuddur. Hə, indi üzərində düşündükdə əvvəlki güzəştlərimə uyğun olaraq, yenə də bildirməliyəm ki, təbiətdə hər hansı gerçək cismani şeyin mövcudluğu mümkün deyil.

**Filonus**: Siz məni təəccübləndirirsiniz. İndi irəli sürdüyünüz anlayışlardan daha xam və şişirdilmişi nə vaxtsa olubmu: aydın deyilmi ki, siz bütün bu şişirtmələrə *maddi substansiya*ya olan inamınızdan vadar olursunuz? Bu, sizin hər şeydə həmin

bilinməyən mahiyyəti arzu etməyinizə gətirib çıxarır. Sizin gerçəklik ilə şeylərin hissi təzahürlərini fərqləndirməyinizin səbəbi də odur. Başqalarının lap yaxşı bildiyi şey haqqında cahil qalmağınıza görə də siz buna borclusunuz. Bu, hələ hamısı deyil: siz təkcə hər şeyin gerçək təbiəti haqqında cahil deyilsiniz, həmçinin nəyinsə həqiqətən mövcud olduğunu, yaxud ümumiyyətlə hər hansı həqiqi təbiətin olduğunu bilmirsiniz, çünki maddi varlıqlarınıza onların gerçəkliyini təşkil etdiyini gümanladığınız mütləq və ya xarici mövcudluq aid edirsiniz. Həmçinin, sonda belə bir mövcudluğu qəbul etməyə vadar olmağınız ya birbaşa ziddiyyətə gətirdiyindən, ya da ümumiyyətlə heç bir anlama gəlmədiyindən, belə çıxır ki, maddi substansiya haqqında öz fərziyyənizi inkar etməyə və kainatın istənilən hissəsində gerçək mövcudluğu qətiyyətlə rədd etməyə məcbursunuz. Və beləliklə, sizi indiyə qədər məlum olan ən dərin və ən təəssüfləndirici *Skeptisizm* öz ağuşuna alır. Söyləyin mənə, Hilas, məsələ mən deyən kimi deyil?

**Hilas**: Sizinlə razıyam. *Maddi substansiya* fərziyyədən, həm də yanlış və əsassız bir fərziyyədən savayı bir şey deyildi. Onun müdafiəsi üçün daha əmək sərf etmək istəmirəm. Hərçənd, irəli sürdüyünüz fərziyyədən, yaxud onun yerinə təqdim etdiyiniz çərçivədən asılı olmayaraq, şübhə etmirəm ki, o, hər tərəfdən yanlış görünəcək. İndi icazə verin bu barədə sizə sual verim – yəni, icazənizlə mən də sizin üsulunuzca sizə yol göstərim. Zəmanət verirəm ki, sizi eyni dərəcədə çətinliklər və ziddiyyətlər vasitəsilə eynilə indi özümün içində olduğum skeptik vəziyyətə gətirib çıxaracam.

**Filonus**: Sizi əmin edirəm, Hilas, ümumiyyətlə heç bir fərziyyə qurmağa iddia etmirəm. Mən adi birisi kimi hisslərimə inanacaq qədər sadəyəm və şeyləri tapdığım kimi qəbul edirəm. Aydın olması üçün deyim ki, mənə görə, gerçək şeylər məhz hisslərim vasitəsi ilə gördüyüm, hiss etdiyim və qavradığım şeylərdir. Mən bunları bilirəm və bu bildiklərim həyatın bütün ehtiyac və məqsədlərinə cavab verdiyindən, hər hansı başqa bilinməyən şeylər haqqında axtarış aparmağa əsasım yoxdur. Məsələn, bir parça hissi çörək sizin haqqında danışdığınız

qeyri-hissi, dərk edilməz, gerçək çörəkdən min dəfə daha yaxşı mədəmdə qalar. Bu, mənim *rənglər və başqa hissi keyfiyyətlər obyektlərdədir* fikrimə bənzərdir. Həyatı boyu qarın ağ, alovun isti olması fikrindən əl çəkə bilmərəm. Siz *qar* və *alov* dedikdə müəyyən xarici, qavranılmayan, qavramayan substansiyaları nəzərdə tutaraq, əslində ağlıq və istiliyin onlara məxsus xüsusiyyətlər olmasını inkar etməkdə düzgünsünüz. Ancaq mən bu sözlərlə gördüyüm, hiss etdiyim şeyləri nəzərdə tutaraq digər insanlar kimi düşünməyə məcburam. Və şeylərin təbiətinə münasibətdə skeptik olmadığımdan, onların mövcudluğuna münasibətdə də skeptik deyiləm. Şeyin hisslərim vasitəsi ilə gerçək olaraq qavranılması və eyni zamanda onun gerçək olaraq mövcud olmaması mənə görə aşkar ziddiyyətdir, çünki mən hissi bir şeyin mövcudluğunu onun qavranılmasından hətta düşüncədə belə ayıra və ya abstraqlaşdıra bilmirəm. Adlandırdığım və haqqında danışdığım taxta, daşlar, alov, su, ət, dəmir və oxşar şeylər bildiyim şeylərdir. Və onları hissələrim vasitəsi ilə qavramadan bilə bilməzdim; hisslər vasitəsi ilə qavranılan şeylər birbaşa qavranılır; birbaşa qavranılan şeylər isə ideyalardır; və ideyalar zehinsiz mövcud ola bilməz; ona görə onların mövcudluğu qavranılanlığında şərtlənir; ona görə də gerçək olaraq qavranıldığında onların mövcudluğuna heç bir şübhə ola bilməz. Beləliklə, rədd olsun bütün bu Skeptisizm, bütün bu gülünc fəlsəfi şübhələr. Allah tərəfindən sübut olunmayınca filosofun hissi şeylərin mövcudluğunu sual altına qoyması, yaxud da idrakımızın intuisiya və sübut əskikliyi olduğunu iddia etməsi nə zarafatdır belə?! Hazırda gördüyüm və hiss etdiyim şeylərin mövcudluğuna şübhə etdiyim kimi öz mövcudluğuma da şübhə edə bilərəm.

**Hilas**: Belə tez yox, Filonus. Deyirsiniz ki, hissi şeylərin zehindən kənarda mövcud olduğunu dərk edə bilmirsiniz? Elə deyilmi?

**Filonus**: Elədir.

**Hilas**: Güman etsək ki, siz yox oldunuz, sizə mümkün görünmür

ki, hisslərlə qarvanıla bilən şeylər hələ də mövcud ola bilər?

**Filonus**: Mümkündür. Ancaq onda bu, başqa bir zehində olmalıdır. Hissi şeylərin mövcudluğunun zehindən kənar olduğunu inkar edəndə, mən tək öz zehnimi deyil, bütün zehinləri nəzərdə tuturam. Aydındır ki, onlar zehindən kənar mövcudluğa malikdirlər, çünki onları təcrübə vasitəsi ilə zehindən müstəqil olaraq tapıram. Ona görə də onları qavradığım zamanlararası intervallar müddətində içində mövcud olduqları başqa bir zehin vardır: onların mövcudluğu anadan olmağımdan əvvəl necə idisə, ehtimal edilən yoxluğumdan sonra da elə olar. Və eynisi yaradılmış bütün digər məhdud ruhlara münasibətdə doğru olduğundan, zəruri olaraq belə çıxır ki, *hər yerdə olan daimi Zehin* vardır ki, bütün şeyləri bilir və dərk edir, həmçinin onları bizim baxışımıza Özü müəyyən etdiyi tərz və qaydalara əsasən göstərir və sonuncular da tərəfimizdən *təbiət qanunları* adlandırılır.

**Hilas**: Mənə cavab verin, Filonus. İdeyalarımızın hamısı tamamilə süst nəsnələrdir? Yoxsa, onlarda hansısa fəaliyyət mənbəyi var?

**Filonus**: Onlar tamamilə passiv və süstdür.

**Hilas**: Bəs, Allah tam aktiv olan fəal qüvvə deyilmi?

**Filonus**: Bunu qəbul edirəm.

**Hilas**: Ona görə də heç bir ideya ona bənzər ola bilməz və Alahın təbiətini əks etdirə bilməz.

**Filonus**: Elədir.

**Hilas**: Bəs, İlahi zehin barədə heç bir ideyaya malik olmadan, şeylərin Onun zehnində mövcud olmasını təsəvvür etməniz necə mümkün ola bilər? Yaxud, əgər İlahi zehni, onun haqqında heç bir ideyaya malik olmadan təsəvvür edə bilirsinizsə, onda nəyə görə mənim Materiyanın mövcudluğunu onun haqqında heç bir ideyaya malik olmamağıma baxmayaraq təsəvvür etməyim mümkün deyil?

**Filonus**: Birinci sualınıza cavab olaraq etiraf edirəm ki, nə Allah, nə də başqa hər hansı bir ruh haqqında ideyaya düzgün olaraq malik deyiləm, çünki bunlar aktiv nəsnələr olaraq ideyalarımız kimi süst şeylər tərəfindən mükəmməl əks edilə bilməzlər. Ancaq ideyalarımın mövcudluğunu bildiyim qədər əminliklə bilirəm ki, bir ruh və ya düşünən substansiya olaraq mən mövcudam. Bundan əlavə, *mən* və *özüm* terminləri ilə nəyi nəzərdə tutduğumu bilirəm; həmçinin, bunu bir üçbucağı, rəngi, yaxud səsi qavradığım kimi qavramasam da, birbaşa və ya intuitiv olaraq bilirəm. Zehin, Ruh, yaxud Can həmin bölünməz, yertutumsuz şeydir ki, düşünür, fəaliyyətdədir və qavrayır. *Bölünməz* ona görə deyirəm ki, yertutumsuzdur; və *yertutumsuzdur* ona görə ki, yertutumlu, formalı, hərəkətli şeylər ideyalardır; ideyaları qavrayan, düşünən və istəyən isə ideya deyil, nə də ideyaya bənzər deyil. İdeyalar qeyri-aktiv və qavranılan şeylərdir. Və ruhlar onlardan tamamilə fərqli növ varlıqlardır. Ona görə də mən demirəm ki, mənim ruhum ideya, yaxud ideyaya bənzərdir. Lakin *ideya* sözünü geniş mənada götürsək, deyilə bilər ki, ruhum məni bir ideya, yəni Allahın obrazı və ya bənzəri ilə təmin edir – hərçənd, əslində çox qeyri-adekvat şəkildə. Çünki Allah haqqında sahib olduğum anlayış yalnız öz ruhum üzərində refleksiya vasitəsi ilə, onun gücünü ucaldaraq və qeyri-kamilliklərini qırağa qoyaraq əldə olunur. Ona görə də özümdə, qeyri-aktiv ideya kimi olmasa da, Allahın hansısa cür aktiv, düşünən obrazı vardır. Və baxmayaraq ki, Onu hisslər vasitəsi ilə qavramıram, Onun haqqında anlayışa malikəm, yaxud Onu refleksiya və düşünmə vasitəsi ilə dərk edirəm. Öz zehnim və öz ideyalarım haqqında birbaşa biliyə malikəm və onların köməkliyi ilə isə digər ruhların və ideyaların mövcudluğunun mümkünlüyünü dolayı dərk edirəm. Bundan əlavə, öz varlığımdan, həmçinin özümdə və ideyalarımda tapdığım asılılıqdan, bir Allahın və Onun zehnindəki yaradılmış bütün şeylərin mövcudluğunu ağlım vasitəsilə zəruri olaraq nəticə çıxarıram. Birinci sualınız barədə bu qədər. İkinci suala gəldikdə, güman edirəm, indi siz özünüz ona cavab verə bilərsiniz. Siz Materiyanı nə qeyri-aktiv varlığı və ya ideyanı qavradığınız kimi obyektiv olaraq

qavrayırsınız; nə özünüzü refleksiya vasitəsi ilə dərk etdiyiniz kimi onu dərk edirsiniz; nə də dolayı şəkildə birinin digərinə bənzəməsi vasitəsilə dərk edirsiniz; nə də ki birbaşa bildiklərinizdən düşünmə vasitəsilə çıxarırsınız. Bütün bunlar *Materiya* məsələsini *Allah* məsələsindən xeyli fərqli edir.

**Hilas**: Deyirsiniz, öz ruhunuz sizi hansısa cür Allah ideyası və ya obrazı ilə təmin edir. Ancaq eyni zamanda qəbul edirsiniz ki, öz ruhunuz haqqında, düzünə qalsa, heç bir *ideyaya* malik deyilsiniz. Hətta təsdiq edirsiniz ki, ruhlar ideyalardan tamamilə fərqli cür varlıqlardır. Deməli, heç bir ideya ruha bənzər ola bilməz. Ona görə də bizim ruh haqqında hər hansı bir ideyamız yoxdur. Hərçənd, haqqında heç bir ideyaya malik olmasanız da, ruhi bir Substansiyanın varlığını qəbul edirsiniz; eyni zamanda maddi Substansiya kimi bir şeyin mövcudluğunu inkar edirsiniz, çünki onun haqqında heç bir anlayışa və ya ideyaya malik deyilsiniz. Bu, ədalətli yanaşmadır? Ardıcıl olmaq üçün siz ya Materiyanı qəbul etməlisiniz, ya da Ruhu inkar etməlisiniz. Buna nə deyirsiniz?

***Çevirəni və Ön sözün müəllifi Anar Cəfərov***

**Berklinin Hilas və Filonus arasında üç dialoq əsərinin tərcüməsinə ön söz**

*Berklinin Hilas və Filonus arasında üç dialoq əsərinin tərcüməsinə ön söz*

***Birinci dialoqun birinci hissəsi***

*Hilas və Filonus arasında üç dialoq*

***Birinci dialoqun ikinci hissəsi:***

*Hilas və Filonus arasında üç dialoq*

***Birinci dialoqun üçüncü hissəsi:***

*Hilas və Filonus arasında üç dialoq*

***Birinci dialoqun dördüncü hissəsi:***

*Hilas və Filonus arasında üç dialoq*

***İkinci dialoqun birinci hissəsi:***

*Hilas və Filonus arasında üç dialoq*

***İkinci dialoqun ikinci hissəsi***

*Hilas və Filonus arasında üç dialoq*

***İkinci dialoqun üçüncü hissəsi***

*Hilas və Filonus arasında üç dialoq*